## Sosial sığorta ödənişləri elektronlaşdırılır

*E-xidmətlərin tətbiqi sığorta yığımlarının dinamikasına müsbət təsir göstərəcək*

Azərbaycanda «Elektron hökumət» layihəsi çərçivəsində həyata keçirilən sistemli tədbirlərin miqyası genişlənməkdədir. Son aylarda «Elektron Hökumət Ödəniş Portalı»na inteqrasiya olunan dövlət strukturlarının sayı artıb və bu proses davam etməkdədir. «E-hökumət» portalına inteqrasiya olunan dövlət qurumlarının tətbiq etdiyi elektron xidmətlərin ən mühüm üstünlüklərindən biri vergi, rüsum, icarə haqqı və digər büdcə ödənişlərinin real vaxt rejimində elektron formada ödənilməsinin təmin olunmasıdır. Bank, maliyyə, vergi, qiymətli kağızlar, sığorta və digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin ödədikləri rüsum və vergilərin, eləcə də lisenziya və icazələrə görə ödənişlərin elektron formada həyata keçirilməsi üçün geniş infrastruktur mövcuddur.

Artıq vergi və rüsumlarla yanaşı, sosial sığorta yığımlarının da elektron formada ödənilməsinə start verilib. Sığortaolunanlara və pensiyaçılara elektron xidmətlərin göstərilməsi üçün Dövlət Sosial Müdafiə Fondu tərəfindən lazımi infrastruktur təminatı yaradılıb. Məcburi sosial sığorta ödənişlərinin həyata keçirilməsində elektron xidmətlərin tətbiqinə başlanıb. Belə ki, məcburi sosial sığorta üzrə səyyar yoxlamanın keçirilməsi, bildirişlərin, xəbərdarlıqların və tələbnamələrin göndərilməsi, sığortaolunanlar tərəfindən məlumatların əldə edilməsi, pensiya təyinatı və pensiya növünün dəyişdirilməsi üçün e-müraciət, pensiyaçılara bank və ya digər kredit təşkilatları ilə bağlı e-xidmətlər tamamilə elektronlaşdırılıb.

«Elektron hökumət» layihəsinin rəhbəri Məmməd Atakişiyev bildirib ki, sosial sığorta sahəsində e-xidmətlərin tətbiqi çox mühüm əhəmiyyət daşıyır və sığorta ödənişlərinin vahid portal vasitəsilə qəbul edilməsi, şəffaflıqla yanaşı, idarəetmənin keyfiyyətinin yüksəlməsinə mühüm təsir göstərəcək. Yaradılmış imkan nəticəsində yuxarıda qeyd olunan regionlarda qeydiyyatdan keçmiş sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, torpaq pay mülkiyyətçiləri və digər sığortaedənlər ödənişlərini 41 bankın və «Azərpoçt» MMC-nin 1200-ə yaxın ödəniş məntəqəsində, eyni zamanda Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin ödəniş kartları vasitəsilə apara biləcəklər.

Məlum olduğu kimi, hökumətin həyata keçirdiyi tədbirlərin əsas istiqamətlərindən biri vergi və sosial sığorta sistemində ödənişlərin həyata keçirilməsinə nəzarətin gücləndirilməsidir. Burada mühüm istiqamətlərdən biri fiziki şəxslərin əmək müqaviləsi olmadan işə götürülməsinə nəzarətlə bağlıdır. Mahiyyət etibarilə həm vergilərin, həm də sosial sığorta haqlarının yığımının artması eyni məqsədə xidmət edir: Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinin inkişafının daha da sürətlənməsinə stimul vermək, sosial proqramların miqyasının genişlənməsinə nail olmaq. Ötən müddət ərzində bu istiqamətdə həyata keçirilən səmərəli tədbirlərin nəticələri onu göstərir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin qeydiyyatdan yayınması halları aradan qalxır, əlverişli biznes və vergi mühiti onları bu cür meyillərdən uzaqlaşdırmağa məcbur edir. Artıq fiziki və hüquqi şəxslər tərəfindən həm vergilərin, həm də sosial sığorta haqlarının ödənilməsində sahibkarlıq subyektlərinin sayının artması ilə yanaşı, bu sahələrdə intizamlılıq, könüllülük nəzərə çarpır.

Nəzərə alsaq ki, sosial sığorta haqları bir ödəmə növüdür, onda bu sistemdə baş verən müsbət dəyişiklikləri ümumilikdə respublikamızda həyata keçirilən islahatların, ödəyicilərin maarifləndirilməsi istiqamətində davamlı tədbirlərin, şəffaflığın, elektron xidmətlərin məntiqi nəticəsi kimi qiymətləndirmək olar. Bu mənada, sosial sığorta ödənişləri ilə bağlı xidmətlərin tam elektronlaşdırılması şəffaflığın və idarəetmənin yüksəlməsinə töhfə verməklə yanaşı, ödənişlərin səviyyəsinin artmasına gətirib çıxaracaq.

Sosial sığorta sahəsində e-xidmətlər ölkəmizdə sahibkarlıq mühitinin yaxşılaşmasına, sahibkarlıq fəaliyyətinə yeni başlayan subyektlərin sayının artmasına, yeni müəssisələrin yaranmasına öz müsbət təsirini göstərəcək. Fiziki və hüquqi şəxslər tərəfindən yeni müəssisələrin yaradılması ölkəmizdə vergitutma bazasının genişləndirilməsi ilə yanaşı, sosial sığorta haqlarının yığımının artmasına şərait yaradır. Bu mənada, e-xidmətlərin tətbiqi yeni müəssisələrin yaradılması fonunda sosial sığorta sahələrindən yığımların dinamikasına da müsbət təsir göstərəcək.

Vətəndaşların ödədikləri sığorta haqları üzrə yığım hesablarına və kapitallarına nəzarət imkanları artacaq, sığorta sistemində şəffaflıq daha da güclənəcək.

Elbrus CƏFƏRLİ